**OLUBDU QƏLBİMƏ HAKİM MƏNİM MƏLALİ-VƏTƏN**

Olubdu qəlbimə hakim mənim məlali-vətən,
Başımda şur ilə məskən salıb xəyali-vətən.

"Vətən", "Vətən" deyərək hər diyarə səs salıram,
Düşərmi bircə dilimdəm mənim məqali-vətən?

Vətən məhəbbətini əmr edibdi peyğəmbər,
Xoş ol kəsə, ona həmdəm olub vüsali-vətən...

Neçün şərafətini, fəxrini verib əldən,
Bu qədər yurduna biganədir ricali-vətən?

Ürək dolubdu nədən, sanki qan piyaləsidir,
Tapıbdır əksini qəlbimdə, bəlkə, hali-vətən?

Zəmanə ötsə də, möhnətli, qanlı qəlbimdən,
Əminəm, heç də silinməz bu ibtizali-vətən.

Tərəhhüm eylə mənə hühudi-səba, çatdır,
Səlamımı eşidə, bəlkə, növnəhali-vətən.

Gərəkdi əzm ilə, hümmətlə ittihad etmək!
Sizinlə bağlıdır iqbalü, həm zəvali-vətən.

Əgər sual edələr - Salikin xəyalı nədir?
Deyin həqiqəti, ancaq olub maali-vətən.



Hüseyn CAVİD